

*Mahmud Qacar - 70*

## Vətən

Xocalımın eşitmədi Göy səsin:
Göyçəsizlər qoy təzədən göynəsin!
Bəs olmadı itkilərin köhnəsi,
Bu nə tale, bu nə baxtdır, ay Vətən?

Ürəyimdə Laçın boyda yaram var,
Şuşa adlı gözü yaşlı yarım var;
Kəlbəcərsiz dünya mənə haramdır,
Bu itkimə əvəz yoxdur, ay Vətən!

Gecə-gündüz Ağdam məni səsləyir,
Dönüşümə dağlar ümid bəsləyir;
Qarabağım hey yolumu gözləyir,
Ürək dözmür, daha vaxtdır, ay Vətən!

Füzulidə ad alacam təzədən,
Cəbrayılda od olacam təzədən;
Qubadlıda şad olacam təzədən,
Zəngilanda sözüm oxdur, ay Vətən!

Ağdərəyə dönə bilim ağ üzlə,
Zirvələrdə dinə bilim ağ üzlə,
Kaş parlayıb sönə bilim ağ üzlə,
Hünərimi görüb toxda, ay Vətən!

Son qurtuluş, nicat haqdan gələcək,
Taleyimdən, gülən baxtdan gələcək,
Qalib səsim Ağrıdağdan gələcək,
Oğlun Mahmud hələ sağdır, ay Vətən!

## Oxuyum

Göylər məhəbbətdən şeir oxuyur,
Mən də son nəfəsdə birin oxuyum.
Ürək sevdiyinə axı çox uyur -
Məkkəmi özümə verin - oxuyum!

Ulu dağlarının köksü qan mənəm,
Yurd üçün fəryadlar qoparan mənəm;
Sarasını sellər aparan mənəm,
Acı dərdlə necə şirin oxuyum?

Orda Qacar adlı bir kənd qalıbdır,
Gözüm gül üzünə həsrət qalıbdır...
Öyrənirəm - çətin bir fənd qalıbdır -
Açıb fələyin də sirrin oxuyum.

Deməli sözlərim qalıb dərində -
Zəfərli günlər var ömür vərində.
Qalxıb Ərgünəşin zirvələrində
Tezliklə qələbə şeirin oxuyum!..

## Ölüm qıydı müəllimə

***Azərbaycanın dəyərli pedaqoqlarından biri, qeyrət qalası Qacar kəndinin fəxri, elmi elmlərin, özü biz şagirdlərinin ürəyinin canlı açarı olan sevimli riyaziyyat müəllimimiz Şahlar Mirzəyevin parlaq xatirəsinə***

Heç anlaya bilmədim -
fərzə, gərəyə görə,
Qoruyub saxladığı
o saf ürəyə görə;
Siz deyin - nəyə görə
ölüm qıydı müəllimə?

Bizləri "...yerdən göyə
qaldırdığı" üçünmü?
Əzrail yuxusundan
kal durduğu üçünmü -
Umtəhanda önündə
lal durduğu üçünmü
ölüm qıydı müəllimə?

Bir kimsənin kimsəyə
zülümünə qıymadı.
Haqsız bölünənlərin
bölümünə qıymadı.
Ölümə də rəhm etdi -
ölümünə qıymadı,
ölüm qıydı müəllimə.
İti zəkası ilə
işıq saçdı nur kimi.
Gəlib çata bildiyi
Ən sonuncu tur kimi -
Həlli mümkün olmayan
mürəkkəb düstur kimi
ölüm qıydı müəllimə...

## Köndələn apardı məni...

***Bir zamanlar alınmaz qala şöhrətli Qacar kəndinin unudulmaz bütün igid sakinlərinə sonsuz məhəbbətlə.***

Zamanın bir qara hökmü
Kökümdən qopardı məni.
Xəzəz dağından yıxıldım,
Köndələn apardı məni...

İndi daha Qacar yoxdur,
Qacar dağılan dərə var.
Səadəti külə dönən
Gözə dağ olan dərə var...

Burda xoşbəxt, mərd bir elin
Varlığı yalana dönüb.
Kükrəyən dəli küləklər
Uçağan ilana dönüb...

Burda ocaq əvəzinə
Bayquş gözləri alışır.
Dərəm elsiz havalanıb,
Özü-özüylə danışır...

Təkcə insan xəyalı yox,
Burda fələk özü çaşır.
Burda igid şəhidlərin
Üsyankar ruhu dolaşır...

Burda qara buludlar da
Qara bayraqlar kimidir.
Canlı bir kənd salnaməsi
Yanıq vərəqlər kimidir...

Bu məkanın şah damarı
Deyir: "dinlə hakiminəm".
O qırılan tozlu yol da
Özü deyir mən kiminəm...

Divanallar haqq-divanın
Kəmliyindən soraq verir.
Ulu "Qayıb ocağı" da
Kimliyindən soraq verir...

Ocaqlı dağ çoxdan duyub
Sahibinin kəmliyini.
"Hacı Səfər" bulağının
Özü deyir kimliyini...

Ərşad qazan mağarada
Hələ sirli nəsə qalıb.
Xanəndə Əhməd yoxsa da,
Obamızda səsi qalıb...

...Burda nə var - hamısını
Oda salanlar qalıbdır.
Burda kimə qalanlar yox,
Kimin olanlar qalıbdır...

## Öpüb

Mənim dodaqlarım o qızdan öncə
Onun su içdiyi çeşməni öpüb.
Yüz yol ürəyimi dağlayan qönçə
Bircə yol rəhm edib heç məni öpüb?

Daim həsrətimin yolun bəzəyib,
O insafsız yaman könlümə dəyib -
Taleyim tərslikdə ona bənzəyib,
Küsdürüb, həmişə gec məni öpüb.

Yalnız öz yurdumdur məlhəm yarama,
Könül, bundan güclü dərman arama!
Qovuşum Qacara - nazlı yarıma,
Görsünlər ki, seçmə seçməni öpüb!

## Tanrım çox sevir məni

Qorudun balam üçün -
Könül, bəlalarının
başına çevir məni!
Bu qədər ağrılarla
ölməyib, sağ qalmışam.
Deyəsən
Tanrım çox sevir məni...

Ədalət 2019.- 20 avqust.- S.6.